# BÜDCƏ ŞƏFFAFLIĞI

*Sabit Bağırov,*

*İqtisadi və Siyasi Araşdırmalar Mərkəzi*

# Büdcə şəffaflığı nə deməkdir?

- açıqlıq;
- əlçatanlıq;
- tamlıq (detallılıq);
- anlaşılanlıq

# Büdcə şəffaflığı nə üçün vacibdir? Risk amilləri:

- büdcəni hazırlayan və icra edən məmurların professionallığı;
- qanunvericilikdəki boşluqlar və çatışmazlıqlar;
- hakimiyyətin digər qollarının tam müstəqil olmaması;
- dövlət auditinin məhdudluğu;
- siyasi opponentliyin zəifliyi;
- müstəqil KİV-lərin zəifliyi;
- vətəndaş cəmiyyətinin zəifliyi;

# Büdcə şəffaflığı nə üçün vacibdir? Səmərəliliyi təmin edən amillər:

- vətəndaş ödədiyi vergilərin hara xərcləndiyini görür;
- büdcənin ictimai müzakirəsinə imkanlar yaranır;
- büdcəni tərtib edən və icra edən məmurların məsuliyyəti artır;
- xərcləri ictimai nəzarətdə saxlamaq imkanları yaranır;
- vətəndaşların hakimiyyətə inamı və etibarı artır;
- ictimai birliklərin nəzarət imkanları yaranır;
- müstəqil ekspertlərin büdcə prosesinə cəlb edilməsi imkanları yaranır;
- vətəndaşı razı salan büdcə onu vergi ödəməyə təşviq edir;
- investorların marağı və inamı artır;
- korrupsiya imkanları zəifləyir;

# Büdcə şəffaflığını təmin edən qanunvericilik

Lider ölkələr:

- Avstraliya: “Maliyyə inzibatçılığı və audit haqqında qanun” – 1985;
- Yeni Zellandiya: “İctimai maliyyə haqqında qanun” – 1989;

ABŞ-də:

- Federal səviyyədə: “Hökumətin fəaliyyəti haqqında qanun” – 1993;
- “Hökumətin hesabatlılığı haqqında qanun” – 1994, Florida ştatı;
- “Əsas nailiyyətlər haqqında qanun” – 1995, Texas ştatı;
- “Nəticələrin aşkarlanması haqqında qanun” – 1997, Oreqon ştatı;

# BVF-in "Büdcə-vergi siyasətində şəfffaflıq Məcəlləsi"

Bu Məcəllə BVF-in İdarəçilər Şurası Müvəqqəti Komitəsinin 16 aprel 1998-ci il tarixli 50-ci iclasında qəbul edilib.

# BVF-in “Büdcə-vergi ciyasətində şəfffaflıq Məcəlləsi”nin əsas prinsipləri

- rolun və vəzifələrin dəqiqliyi və birmənalılığı;
- məlumatların ictimaiyyət üçün əlçatanlılığı;
- büdcənin hazırlanması prosesinin açıqlığı;
- məlumatların düzgünlüyünə zəmanət

# BVF-in Məcəlləsinin “Rolun və vəzifələrin dəqiqliyi” bölməsi

- Burada dövlət idarəetmə orqanlarının strukturuna, funksiyalarına, həmin orqanlar arasında vəzifə bölgüsünə və dövlət orqanları ilə iqtisadiyyat arasındakı münasibətlərə dair normalar mövcuddur.
- Bölmənin sonuncu bəndində qeyd edilir: «Dövlət qulluqçularının davranışına dair etik normalar dəqiq müəyyən edilməli və geniş şəkildə aşkarlanmalıdır».

# BVF-in Məcəlləsinin "İctimaiyyətin məlumatlandırılması" bölməsi

Burada iki normaya dair müvafiq mülahizələr var:

- «vergi-büdcə sahəsində hökumətin keçmiş, indiki və gələcək fəaliyyətinə dair məlumatlar tam şəkildə ictimaiyyətə təqdim edilməlidir»;

- «vergi-büdcə məlumatlarının vaxtında dərc edilməsi barədə öhdəliklər qəbul edilməlidir».

# BVF-in Məcəlləsinin “Büdcənin tərtibi və icrasının və büdcə hesabatının açıqlığı” bölməsi

Burada əsasən aşağıdakı dörd normaya dair müvafiq mülahizələr var:

- «büdcə sənədlərində vergi-büdcə siyasətinin məqsədləri, makroiqtisadi əsaslar, büdcənin proqram əsası və vergi-büdcə sahəsində ən mühüm risklər qeyd edilməlidir»;
- «büdcə məlumatları siyasətin təhlilini təmin edən və hesabatlılığa yardım edən şəkildə təqdim edilməlidir»;
- «təsdiq edilmiş xərclərin icrası və onlar üzərində nəzarət qaydaları dəqiq müəyyən edilməlidir. Gəlirlərin toplanması və bu sahədə nəzarət qaydaları da bu cür dəqiq müəyyən edilməlidir»;
- «vergi-büdcə hesabatları müntəzəm şəkildə qanunvericilik orqanına və ictimaiyyətə təqdim edilməlidir».

# BVF-in Məcəlləsinin “Məlumatların düzgünlüyünə zəmanət” bölməsi

Burada əsasən aşağıdakı iki normaya dair müvafiq mülahizələr var:

- «büdcə-vergi məlumatları keyfiyyət baxımından ümumməqbul standartlara cavab verməlidir»;
- «vergi-büdcə məlumatları müstəqil yoxlamalardan keçməlidir».

# Büdcə şəffaflığına dair OECD – nin tövsiyələri

Sənəd üç hissədən ibarətdir:

1) Büdcə sənədləri (büdcə, ilkin büdcə sənədi, aylıq, yarımillik və illik hesabatlar, seçkiqabağı hesabat və uzunmüddətli hesabat);

1) Məlumatların açıqlanması (iqtisadi önşərtlər, vergilər, maliyyə öhdəlikləri və maliyyə aktivləri, qeyrimaliyyə aktivlər, təqaüdlərə dair öhdəliklər, şərti öhdəliklər);

1) Dürüstlük, nəzarət və hesabatlılıq (mühasibat prinsipləri, sistemlər və məsuliyyət, audit, ictimai və parlament dinləmələri)

# Vətəndaşların və ictimai birlıklərin güc və bacarığı amili

Büdcənin şəffaflığı vacib amil olsa da yetərli deyil!

Vətəndaşlar və ictimai birliklər bu şəffaflıqdan istifadə etməyi bacarmalı və imkanlı olmalıdırlar.

# Büdcə şəffaflığından səmərəli istifadə amilləri

- Ictimai birliklərin güc və bacarığı;
- büdcə layihəsi üzrə ictimai müzakirələrin keçirilməsi;
- büdcə siyasəti prioritetlərinin müəyyənləşdirilməsində ictimai qurumların iştirakı;
- büdcənin müzakirə və qəbulunun KİV-lərdə geniş işıqlandırılması;

DİQQƏTİNİZƏ GÖRƏ
TƏŞƏKKÜR EDİRƏM